*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 20 (659)

14 oktyabr 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# BÖYÜK LİDERLİK MİSSİYASI

**Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədovun müəllifi olduğu və "Azərbaycan" qəzetində dərc edilmiş "Böyük liderlik missiyası" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

"İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndər Heydər Əliyevin 2003-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciətində yer alan bu müdrik fikirlər xalqımızın taleyüklü seçimini müəyyən etməklə yanaşı, ölkəmizin iyirmi ildir davam etməkdə olan möhtəşəm inkişafının ideya əsaslarından biri olmuşdur. Sözügedən seçkilərdən ötən 20 ilin yüksəkliyindən keçdiyimiz yola baxarkən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın tarixi qələbələrindən və misilsiz inkişaf uğurlarından böyük qürur və iftixar hissləri yaşamaya bilmirsən.



Dövlətimizin artmaqda davam edən qüdrəti, ölkəmizin dəyişən siması, Qarabağı azadlığa qovuşduran əzəmətli zəfər, Azərbaycanın və bölgənin həyatında baş verməkdə olan dərin proseslər Prezident İlham Əliyevin müstəsna uğurla həyata keçirdiyi tarixi missiyasının birbaşa təsdiqidir.

### XXI əsrin Azərbaycan möcüzəsi

Prezident İlham Əliyevin liderliyinin geniş miqyasları və dəqiq hədəfləri özünün aydın və hərtərəfli ifadəsini onun 2003-cü ildə Azərbaycan xalqına təqdim etdiyi seçki proqramında tapmışdır. "Böyük işlər görmək üçün böyük hədəflər seçməliyik" mesajı Azərbaycanın yeni və gənc liderinin fəaliyyətinin həm xarakterini, həm də miqyaslarını dərk etmək üçün aydın təsəvvür yaradır.

Qarşısında Qarabağı işğaldan azad etmək kimi asan olmayan vəzifə dayanan dövlətin seçə biləcəyi yeganə düzgün strategiyanın iqtisadiyyatın sürətli inkişafından, cəmiyyətin bütünlüklə modernləşməsindən, milli birliyin və həmrəyliyin gücləndirilməsindən, ölkənin beynəlxalq imicinin yüksəldilməsindən ibarət olduğunu İlham Əliyev özünəməxsus müdriklik və intuisiya ilə aydın şəkildə dərk edirdi.

Düzgün strategiya, güclü iradə, qətiyyət və çeviklik öz bəhrəsini verməyə bilməzdi. Qısa vaxtda Azərbaycan vətəndaşları ölkədə köklü dəyişiklikləri nəinki hiss etməyə başladı, habelə onun gələcək konturlarını qiymətləndirmək imkanı qazandılar. Nəticənin onun haqqında təsəvvürlərdən daha əzəmətli olması İlham Əliyevin prezidentliyinin birinci on ilinin ümumi səciyyəsi kimi dəyərləndirilməlidir. İqtisadiyyatın 3 dəfədən çox artması, bir neçə il ərzində Azərbaycanın dünyanın ən dinamik iqtisadi artıma malik olan ölkəsi statusunu qazanması son onilliklərin ən əlamətdar beynəlxalq iqtisadi hadisələrindən hesab olunur və XXI əsrin Azərbaycan möcüzəsinin başlıca əlamətini özündə əks etdirir.

### Hücumçu diplomatiya və onun uğurları

Azərbaycan Respublikasının xarici siyasət sahəsində fəaliyyətinin başlıca qayəsinin müstəsna olaraq ölkənin ərazi bütövlüyünün təmin edilməsinə uyğunlaşdırılması ənənəsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ərazilərinin təxminən 20 faizi işğal altında olan dövlətin xarici siyasətinin fərqli modelini təsəvvür etmək mümkün deyil. Prezident İlham Əliyevin rəhbərliyi dövründə sözügedən ənənə nəinki davam etdirildi, habelə yeni şəraitə və imkanlara uyğun olaraq daha da təkmilləşdirildi, səmərəsinin artırılması naminə müasir yanaşmalar tətbiq edildi.

Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar həqiqətlərin dünyaya daha inandırıcı şəkildə çatdırılması, işğalçının və onun havadarlarının yalanlarının qətiyyətlə ifşa edilməsi, Azərbaycanın ərazilərinin işğalının və onun acı nəticələrinin əyani şəkildə beynəlxalq təşkilatlar tərəfindən dərk edilməsinə nail olunması, lazım gələcəyi halda ərazi bütövlüyünün güc vasitəsilə bərpa edilməsi variantının qaçılmaz zərurətdən irəli gəldiyinə beynəlxalq icmanın hazırlanması hücumçu diplomatiyanın qarşısında duran vəzifələrin bir qismini təşkil edirdi. Yeni xarici siyasət konsepsiyasının ən böyük dividendi və praktik nəticəsi özünün qabarıq ifadəsini 44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsinin və ümumilikdə ölkəmizin ərazi bütövlüyünün tanınmasına dair aparıcı dövlətlərin və beynəlxalq təşkilatların birmənalı bəyanatlarında tapır.

### Azərbaycanın dünyaya yeni təqdimatı

Prezident İlham Əliyevin Azərbaycanın beynəlxalq imicinin formalaşmasına xüsusi həssaslıqla yanaşması onun liderlik stilinin və inkişaf konsepsiyasının ayrılmaz tərkib hissəsi qismində nəzərdən keçirilməlidir.

Azərbaycanın uğurlu beynəlxalq təbliğatının ən başlıca təşəbbüskarının və iştirakçısının Prezident İlham Əliyevin şəxsində özünü büruzə verdiyi hamılıqla etiraf olunur. Prezident İlham Əliyev müxtəlif beynəlxalq siyasi, iqtisadi və geopolitik konfrans və müzakirələrdə yaxından və yüksək fəallıq şəraitində iştirak etməklə öz intellekti, siyasi hazırlığı və qətiyyəti ilə dəfələrlə ölkəmizin ən gözəl təqdimatı nümunələrini nümayiş etdirmişdir.

### Zəfər salnaməsi. Tam və qəti qələbə

Müdrik insan və uzaqgörən siyasətçi İlham Əliyev düşmənə qalib gəlməyin yeganə sirrinin ondan daha böyük güc toplamaq bacarığında olduğunu gözəl bilirdi. Prezidentlik fəaliyyətinin ilk illərində elan etdiyi "Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsindən çox olacaqdır" ifadəsi, əslində, onun münaqişənin həllinə rasional yanaşmasının qabarıq göstəricisidir. Azərbaycan Ordusunun gücləndirilməsi, ən müasir silahlarla təchiz edilməsi, hərbçilərin döyüş qabiliyyətinin artırılması, orduda mənəvi-psixoloji mühitin yaxşılaşdırılması gələcək zəfərin təmin edilməsinə doğru aparan yolda həyata keçirilən zəruri tədbirlər, hazırlıq işləri idi. Qarabağ müharibəsində Azərbaycan Ordusunun hərbi strategiyasının müasir dünya döyüş praktikasının qızıl səhifəsinə layiq görülməsi İlham Əliyevin zəfər salnaməsinin miqyasını və tarixi əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.

Azərbaycan tarixinin şanlı səhifəsini təşkil edən İkinci Qarabağ müharibəsində möhtəşəm qələbə Prezident İlham Əliyevin liderlik missiyasının ən parlaq ifadəsi, təzahürü və özünütəsdiqi sayılır.

### Böyük gələcək naminə

Taleyinə əzəmətli tarixi missiya yazılmış liderlərin fəaliyyətinin nəticəsi xalqın, ölkənin, bəzən böyük bir bölgənin yeni tarixinin yaradılması olur. İndiki nəsillər Azərbaycanın yeni şərəfli tarixinin xoşbəxtliyini yaşamaqdadırlar. Möcüzəni xatırladan qeyri-adi sosial və iqtisadi sıçrayış və möhtəşəm zəfərlər Azərbaycanın şanlı tarixinin ənənələrini canlandıran və yaşadan nəhəng siyasi nailiyyətdir. Bu tarixi nailiyyətin qızıl səhifəsini, habelə Prezident İlham Əliyevin liderlik missiyasının parlaq təcəssümünü 2020-ci ilin Qarabağ savaşında 30 il erməni işğalı altında qalan torpaqlarımızın geri qaytarılması və qanunsuz "Dağlıq Qarabağ" rejiminə birdəfəlik son qoyulması təşkil edir.

Tarix və tale Prezident İlham Əliyevə şərəfli missiya nəsib edib. 2003-cü ildən bu günədək bu missiyadan irəli gələn ayrı-ayrı vəzifələrin uğurla həyata keçirilməsinə bütün dünya şahidlik etməkdədir. Azərbaycan güclü, qüdrətli və firavan müstəqil dövlət kimi özünü qətiyyətlə təsdiqləyib.

# Daxili işlər naziri Masallı rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 11 oktyabr tarixində Masallı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Masallı rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Masallı, Yardımlı, Lerik, Astara, Lənkəran şəhər və rayonlarından qəbula gələn 95 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 18-i Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 71 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**





2_Layout 1 12.10.2023 19:00 Page 1



# HƏRBİ HİSSƏ XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİ İLƏ ÖNDƏDİR

Respublika Baş Prokurorluğunun, Daxili İşlər Nazirliyinin, DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin, Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin inzibati binalarının və hərbi hissənin mühafizəsini təmin edən 16076 saylı hərbi hissənin şəxsi heyəti vəzifə borclarından irəli gələn tələblərə uyğun olaraq, qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir. Bu istiqamətdə həyata keçirilən tədbirlər hissə komandanlığının hər zaman diqqət mərkəzindədir.





Hərbi hissənin komandiri polkovnik-leytenant Vaqif Umudəliyev əldə olunan müvəffəqiyyətin arxasında yüksək döyüş hazırlığının, mehriban, sağlam kollektivin, möhkəm hərbi intizamın, eyni zamanda məqsədyönlü fəaliyyətin dayandığını bildirdi. Qeyd etdi ki, ötən müddət ərzində Daxili Qoşunların komandanlığı tərəfindən verilən əmr, direktiv, göstəriş, habelə təlimatların tələbləri şəxsi heyət tərəfindən dərindən öyrənilib, aidiyyəti üzrə xidmət və bölmələrin qarşısında müvafiq tapşırıqlar qoyulub. Verilən hər bir tapşırığın icrasına hissə komandanlığı tərəfindən ciddi nəzarət olunur.

Onun sözlərinə görə, hərbi qulluqçular öz funksional vəzifələrinə məsuliyyətlə yanaşaraq, şəxsi nümunə göstərir və qarşıya qoyulan bütün tapşırıqları uğurla icra edirlər. Polkovnik-leytenant V.Umudəliyev onu da qeyd edi ki, diqqət yetirilən əsas məsələlərdən biri şəxsi heyətə ruh yüksəkliyinin aşılanması, mənəvi-psixoloji durumun sabit saxlanılmasıdır.

Gündəlik olaraq döyüş xidmətinə cəlb edilən hərbi qulluqçuların peşəkar hazırlıqlarından da söz açan komandir hərbi hissənin nizam-intizamı ilə fərqlənən bölükləri arasında baş leytenant Aqil Tağıyevin komandiri olduğu mühafizə bölüyünün xidmətini xüsusilə vurğuladı.

Baş leytenant A.Tağıyev qarovula təyin olunmuş şəxsi heyətin hazırlanmasında, onlarla təlimat məşğələlərinin keçirilməsində yaxından iştirak edir, eyni zamanda bölükdə daxili qayda-qanuna və intizama riayət edilməsini ciddi nəzarətdə saxlayır.

Xidmətin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil olunduğunu vurğulayan komandir xidmətə nizam-intizamı, təlim-tərbiyəsi ilə fərqlənən, sağlamlıq durumu qənaətbəxş olan hərbi qulluqçuların cəlb olunduğunu dedi. Bildirdi ki, təsdiq olunmuş plana əsasən, hərbi qulluqçularla gündəlik olaraq döyüş hazırlığı, ictimai-siyasi hazırlıq və atəş hazırlığı üzrə məşğələlər keçirilir. Məşğələlərdə şəxsi heyətə nəzəri biliklər aşılanır. Onlarda əzmkarlıq, dözümlülük kimi keyfiyyətlər formalaşdırılır, şəxsi heyətlə fiziki hazırlıq məşğələlərinə xüsusilə önəm verilir.

Həmçinin məşğələlərdə silahların, döyüş texnikasının qorunub saxlanılması, onlardan düzgün istifadə edilməsi, eləcə də təhlükəsizlik qaydalarına ciddi riayət olunması mütəmadi olaraq şəxsi heyətə çatdırılır.

Xidmətə cəlb edildikdən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Hərbi hissənin tərbiyə işləri üzrə bölməsində təlimatçı-psixoloq kapitan Zərifə Rzaquliyeva da fərdi qaydada xidmətə cəlb olunan şəxsi heyətlə söhbət aparır.





Şəxsi heyətlə yaxından maraqlanan, onların qayğısına qalan komandir tabeliyində olan hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili olunduğunu və onların istirahəti üçün lazımi şərait yaratdığını söylədi.

Sonda baş leytenant A.Tağıyev nümunəvi xidməti və sayıqlığı ilə seçilən bölüyün qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazır olduğunu sözlərinə əlavə etdi. O, funksional vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçulardan gizir Bəhmən Məmmədov, baş çavuş Murad Eyvazlı, çavuş Seymur Hüseynli, baş əsgərlər Adil Babazadə və İsaq Tağıyevin adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

# HƏRBİ QULLUQÇULARIMIZ TƏRƏFİNDƏN TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ PEŞƏKARLIQLA İCRA OLUNUB

Cari ilin oktyabr ayının 2-dən 6-dək Bakı şəhərində 74-cü Beynəlxalq Astronavtika Konqresi keçirilib. Qeyd edək ki, konqresin keçirilməsi zamanı polis əməkdaşları ilə birlikdə Daxili Qoşunların şəxsi heyətinin də qarşısına bir sıra mühüm tapşırıqlar qoyulub. Belə ki, hərbi qulluqçularımıza konqresin keçirildiyi ərazinin perimetr üzrə mühafizəsinin təşkili, həmin əraziyə kənar şəxslərin daxil olmasının qarşısının alınması, eləcə də istehkamçı yarımqrupu tərəfindən nəqliyyat-yoxlanış sahələrində əraziyə daxil olan avtomobillərin yoxlanılması üzrə vəzifələr həvalə olunub.





Qeyd olunan vəzifələr Daxili Qoşunların Baş İdarəsinin qərargahının kimya xidmətinin rəisi polkovnik Əlləddin Damirçiyevin rəhbərliyi ilə DQBİ-nin və 67987 saylı hərbi hissənin hərbi qulluqçuları tərəfindən yerinə yetirilib.

Ümumilikdə, bütün beynəlxalq əhəmiyyətli tədbirlərdə olduğu kimi, bu tədbirdə də şəxsi heyət komandanlıq tərəfindən qarşıya qoyulmuş tapşırıqların yüksək səviyyədə icrasını təmin edib.

**kapitan Nigar Ağayeva**

# MİNAATAN BATAREYANIN ŞƏXSİ HEYƏTİ İLƏ NÖVBƏTİ TƏLİM KEÇİRİLİB



Oktyabrın 3-dən 5-dək 12565 saylı hərbi hissənin minaatan batareyasının şəxsi heyəti ilə “Xüsusi şəraitlərdə xüsusi təyinatlı dəstənin hücumunu dəstəkləyən minaatan batareyasının fəaliyyəti” mövzusunda təlim keçirilib.

İlk olaraq, təlimin təşkili və keçirilməsi üçün müvafiq planlaşdırıcı sənədlər hazırlanıb. Sonra təlimin mövzusu, planı və məqsədi, təhlükəsizlik qaydalarına riayət olunmasının vacibliyi şəxsi heyətə çatdırılıb. Hərbi qulluqçuların hazırlığına, onların silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, GPS və rabitə vasitələrinə baxış keçirilib. Həmçinin atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqlarının icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi və digər mövzular, eləcə də taktiki və ixtisas hazırlığı üzrə şəxsi heyətlə məşğələlər təşkil olunub.



Təlim zamanı batareya ilə xüsusi təyinatlı bölmənin döyüş fəaliyyətinin uzlaşması üzrə suallar işlənilib. Hücum fəaliyyətinin gedişində batareyanın yerdəyişməsi, xüsusi təyinatlı bölmənin istəyi üzrə yeni aşkar olunmuş hədəflərə atış tapşırıqlarının icrası, bu zaman xüsusi təyinatlı bölmənin hərbi qulluqçuları tərəfindən atışa xidmət tapşırıqlarının yerinə yetirilməsi, batareya tərəfindən hədəflərin susdurulması və artilleriya atəşindən sonra xüsusi təyinatlı bölmə tərəfindən hədəflərin məhv edilməsi təmin olunub. Təlimdə iştirak edən bölmələrin fəaliyyətinin uzlaşması real döyüş şəraitinə uyğun yerinə yetirilib.

**kapitan Xədicə Hacızadə**

# MÜASİR TİBBİ AVADANLIQLARLA TƏCHİZ OLUNMUŞ HƏRBİ QOSPİTAL ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞININ KEŞİYİNDƏDİR

Daxili Qoşunların 12576 saylı hərbi hissəsi-hərbi qospital artıq 30 ildir ki, şəxsi heyətin sağlamlığının keşiyində durur. Birinci Qarabağ müharibəsi zamanı respublikamızda qızğın döyüşlərin getdiyi bir dönəmdə, kiçik həkim kontingenti ilə fəaliyyətə başlayan qospital ştat strukturu tədricən genişləndirilərək, müasir standartlara cavab verən tibb müəssisəsinə çevrilib.

Hazırda hərbi qospital müxtəlif xəstəliklərin müalicəsində zəngin təcrübə toplamış tibb müəssisəsidir. Burada mürəkkəb cərrahiyyə əməliyyatları aparılır. Öz təyinatına uyğun olaraq hərbi qospital hərbi qulluqçuların və onların ailə üzvlərinin, veteranların, sıralarımıza yeni qəbul olunmuş əsgərlərin, o cümlədən qoşunlarda xidmət üçün müraciət edən şəxslərin müayinə və müalicəsi ilə məşğul olur.

Qospitalın rəisi - hərbi hissə komandiri tibb xidməti polkovniki Şəmsəddin Heydərov söhbət zamanı bildirdi ki, xəstələrin sağlamlığına qovuşması üçün bütün zəruri şərait yaradılıb və qospital müasir tibbi avadanlıqlarla təchiz edilib.

Tibb xidməti polkovniki Ş.Heydərov onu da əlavə etdi ki, həkim və orta tibb personalının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə onların mütəmadi olaraq respublikamızın tibb müəssisələrinə göndərilməsi və ixtisasartırma kurslarında iştirakı təmin edilir.

Hazırda hərbi qospital ölkəmizdə fəaliyyət göstərən tibb ocaqlarından heç də geri qalmır. Qospitalın tərkibində funksional-diaqnostika, terapiya, cərrahiyyə, dəri-zöhrəvi, əməliyyat və qanköçürmə, reanimasiya, uro-nefrologiya, infeksiya, ruhi-əsəb xəstəlikləri, psixonevrologiya, reabilitasiya şöbələri mövcuddur.

Funksional-diaqnostika şöbəsində bütün digər qabaqcıl tibb müəssisələrində olduğu kimi, həm laborator, həm də instrumental müayinələr aparılır. Müayinələr müasir cihazlarla, insan müdaxiləsi olmadan həyata keçirilir. Laborator olaraq ümumi kliniki müayinələr, instrumental müayinələrdən rəqəmsal rentgen, EKQ, EXO-kardioqrafiya, FQDS, bronxoskopiya, USM və rəngli doppler aparılır, həmçinin fiziki yük altında ürəyin fəaliyyəti yoxlanılır.





Hərbi qospitalın seçilən şöbələrindən biri fizioterapiya-tibbi bərpa şöbəsidir. Burada hava vannaları, su, mineral sular, elektrik və elektromaqnitlə müalicə, massaj, müalicəvi bədən tərbiyəsi və digər üsullardan istifadə olunur. Şöbədə dünyanın müxtəlif ölkələrindən gətirilən müasir tibbi avadanlıqlar mövcuddur. Bu tibbi avadanlıqlardan daha çox oynaq, birləşdirici toxuma, mədə-bağırsaq, tənəffüs sistemi xəstəliklərində, həmçinin kosmetoloji müalicələr zamanı istifadə olunur.

Psixonevrologiya şöbəsi də savadlı tibb personalı ilə hərbi qospitalın seçilən şöbələrindəndir. Şöbə fəaliyyətini hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq təşkil edir. Buraya həm psixi problemləri olanlar, həm də nevroloji xəstələr qəbul olunurlar.

Əməliyyat və qanköçürmə şöbəsinin şəxsi heyəti də səylə çalışır, üzərinə düşən vəzifələri keyfiyyətlə yerinə yetirir. Bu şöbə təcili və planlı əməliyyatlara hazırlıq görür, əməliyyatların icrasını təşkil edir. Əməliyyat zamanı sterilliyi qoruyur, ehtiyac olduqda xəstələrə qan və plazma elementləri köçürür. Şöbədə üç əməliyyat və bir sterilizasiya otağı fəaliyyət göstərir.



Qospitalın anesteziologiya və reanimasiya şöbəsi isə cərrahi əməliyyatlar, xüsusi diaqnostik, müalicəvi manipulyasiyalar zamanı ağrısızlaşdırmanın aparılması, hazırlanması, habelə həyati vacib funksiyaları pozulmuş şəxslərə reanimasion və intensiv terapiya tədbirlərini həyata keçirir.

Göründüyü kimi, müasir tibbi avadanlıqlarla təchiz edilmiş hərbi qospitalın bütün şöbələrinin şəxsi heyəti hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlığının keşiyində duraraq, onlara göstərilən etimadı doğruldur.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 13.10.2023 10:15 Page 1



# DAXİLİ QOŞUNLARDA ŞƏHİDLƏRİN ANIM TƏDBİRLƏRİ DAVAM EDİR







**"Hər bir şəhid bizim üçün böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır".**

Heydər Əliyev,
Azərbaycan xalqının
Ümummilli Lideri

44 günlük Vətən müharibəsi müasir müstəqillik tariximizin və hərb salnaməmizin qəhrəmanlıq səhifəsidir. İllər ötəcək, Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi naminə göstərdiyi hünər heç vaxt unudulmayacaq.

Xalqımızın qəhrəman oğullarının rəşadəti sayəsində doğma Qarabağda müqəddəs üçrəngli bayrağımız ucaldılıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə ölkəmizdə şəhidlərin xatirəsinə dərin ehtiram əlaməti olaraq hər il 27 sentyabr tarixində Anım Günü qeyd edilir.

Xalqımız Vətən yolunda canını fəda etmiş, bizə möhtəşəm hərbi zəfər sevincini yaşatmış şəhidlərimizin əziz xatirəsinə böyük ehtiram göstərir. Paytaxtımızda və bölgələrdə şəhidlərimizin anılmasına həsr olunan geniş ictimai tədbirlər keçirilir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Vətən müharibəsində şərəfli döyüş yolu keçib, qələbənin qazanılmasına öz layiqli töhfəsini verib. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə Daxili Qoşunların hərbi qulluqçularından 66 nəfər şəhidlik zirvəsinə ucalıb, 346 nəfər isə yaralanıb.

Bununla yanaşı, 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ bölgəsində erməni silahlı birləşmələrinin qalıqlarına qarşı antiterror tədbirləri keçirilib. Beləliklə, Qarabağ ərazisində ölkəmizin suverenliyi tam bərpa edilib. Antiterror tədbirləri zamanı Daxili Qoşunların şəxsi heyətindən 12 nəfər şəhadətə yüksəlib, 24 nəfər isə yaralanıb.

Şəhid hərbi qulluqçularımızın xatirəsinin yad edilməsi ilə əlaqədar Daxili Qoşunların şəxsi heyətinin, veteranların və şəhidlərin ailə üzvlərinin iştirakı ilə müvafiq tədbirlər təşkil olunub. Belə ki, Daxili Qoşunların Baş İdarəsi, Ali Hərbi Məktəbi və hərbi hissələrində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, abidələri önünə gül dəstələri qoyulub. Həmçinin Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında aparılan döyüş əməliyyatları zamanı hərbi qulluqçularımızın göstərdikləri şücaət nümunələri mövzusunda məşğələlər keçirilib, şəxsi heyətə müharibədən bəhs edən filmlər nümayiş etdirilib.

Şəhidlər xiyabanları ziyarət edilərək həyatını Vətən yolunda qurban vermiş mərd oğulların məzarlarına gül dəstələri qoyulub, onların ruhuna dualar oxunub.

Hərbi qulluqçularımız tərəfindən şəhid ailələrinə baş çəkilib. Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Anım tədbirlərinin keçirilməsi qarşıdakı günlərdə də davam etdiriləcək.

**Mətbuat xidməti**







*Şəhidlərimiz*

# CƏSUR DÖYÜŞÇÜ KİMİ SİNƏSİNİ DÜŞMƏN GÜLLƏSİNƏ SİPƏR ETDİ...

44 günlük Vətən müharibəsi müasir müstəqillik tariximizin şanlı səhifəsidir. Azərbaycanın təcavüzkar Ermənistan üzərində möhtəşəm hərbi qələbəsi xalqımızı haqlı olaraq qürurlandıran və bizə şöhrət gətirən gerçəklikdir. Artıq beynəlxalq ictimaiyyətin nəzərində qalib, güclü və yenilməz ölkəyik.

Müzəffər Ali Baş Komandanın dilindən səslənən "Qarabağ Azərbaycandır!" şüarı dəmir yumruq zərbəsi ilə döyüş meydanında başı əzilən düşmənə qəbul etdirilib. Fəxrimiz olan Silahlı Qüvvələrimiz Vətən müharibəsində ərazi bütövlüyümüzü, 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən antiterror tədbirləri zamanı isə Qarabağ bölgəsində tam suverenliyimizi bərpa edib.

Biz heç vaxt unutmayacağıq ki, böyük hərbi zəfərimiz tərəddüd etmədən öz həyatını Vətənə qurban verən qeyrətli və ləyaqətli oğulların fədakarlığı sayəsində qazanılıb. Azərbaycan dövləti və xalqı var olduqca, bu igidlərin xatirələri qəlblərdə yaşayacaqdır.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında xidmət etmiş əsgər Abasov Ayaz Nizami oğlu Vətən müharibəsində şəhid olan hərbi qulluqçularımızdan biridir. O, 1998-ci il dekabrın 20-də Cəlilabad rayonunun Bəcrəvan kəndində doğulub. Nizami Abasov və Şəfaqət Abasova onun valideynləri, Vüsalə, Aysel, Rüfanə bacıları, Pünhan isə qardaşıdır.

Atasının verdiyi məlumata görə, övladları arasında təvəllüdü nəzərə alınaraq ikinci olan Ayaz milli adət-ənənələrimizə bağlı, doğma el-obaya ehtiramlı, zəhmətkeş ailədə böyüyüb. Qeyd edim ki, ailə başçısı "Azəriqaz" İstehsalat Birliyinin Göytəpə Qazpaylayıcı stansiyasında operator işləyir. Şəhidin anası evdar qadındır. Şəfaqət xanım Cəbrayıl rayonunun Çaxırlı kəndində anadan olub. Doğma kəndi Birinci Qarabağ müharibəsi zamanı işğal edilib, beləcə, öz yurdundan məcburi köçkün düşüb.

N.Abasovun sözlərinə görə, Ayaz tərbiyəli, qanacaqlı, böyük-kiçik yerini bilən, ailəcanlı, xeyirxah, əməksevər gənc olaraq yetişdirilib. Ata-anasına ev işlərində köməyini əsirgəməyib. Dostları ilə münasibətlərində dürüstlüyü və səmimiyyəti ilə seçilib.

Bəcrəvan kənd tam orta məktəbində o, 11 il təhsil alıb. Fizika, ədəbiyyat, çağırışaqədərki hazırlıq, fiziki tərbiyə fənlərinə xüsusi maraq göstərib. İdmanın sərbəst güləş və qaçış növləri ilə məşğul olub, fiziki hazırlığının inkişafını həmişə diqqətdə saxlayıb. Müəllimlərinin onun vətənpərvər, dövlətinə sadiq vətəndaş kimi formalaşmasında əməkləri az olmayıb. Onlar haqqında söhbət düşəndə ünvanlarına xoş sözlər deyib, minnətdarlığını bildirib.



2017-ci ilin yanvar ayında Ayaz müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25031, 12318, 67987 saylı hərbi hissələrində hərbi xidmət keçib. Nümunəvi xidmətilə fərqlənərək komandirləri tərəfindən müsbət xarakterizə olunub. Vətən qarşısında əsgər borcunu vicdanla yerinə yetirib.

2018-ci ilin iyul ayının 14-dən etibarən qoşunların sıralarında öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Həyatının bu vacib qərarı heç də təsadüfi deyildi. Hələ məktəbli olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib. Ailədə gələcək peşə seçimi haqqında danışanda söyləyib ki, mütləq hərbçi olacaq, anasının düşmən tapdağında qalmış yurdunu işğaldan qurtaracaq. Valideynləri Ayazın həyatını hərbi xidmətə bağlamaq qərarına anlayışla yanaşaraq, övladlarına xeyir-dua veriblər.

Vətən müharibəsi başlayanadək Ayaz 16075 saylı hərbi hissədə xidmət edib. Xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, sonra isə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun heyət nəfəri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. Xidmətdə fərqləndiyinə görə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb. Döyüş və mənəvi-psixoloji hazırlığında, funksional vəzifələrinin icrasında göstərdiyi əzmkarlıq öz peşəsinə necə can yandırmasının nümunəsi olaraq silahdaşları tərəfindən unudulmayıb. Məzuniyyət vaxtlarında kəndə gələrkən doğmaları, dostları ilə söhbətlərində hərbçi peşəsi ilə qürur duyduğunu, hərbi xidmətin hər bir gənc üçün həyat məktəbi olduğunu vurğulayıb.

16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri mayor Ələsgər Muxtarov Vətən müharibəsinin və Qarabağ bölgəsində keçirilən antiterror tədbirlərinin iştirakçısıdır. Söylədi ki, Ayazı xüsusi təyinatlı dəstədə xidmət etdiyi vaxtdan tanıyıb. Tabeliyində olmuş hərbi qulluqçunun fərdi keyfiyyətləri haqqında danışdı. Komandir bildirdi ki, o, nizam-intizamlı, təmkinli, bacarıqlı, verilən tapşırıqların öhdəsindən məharətlə gələn, öz üzərində çalışan, təlimlər və məşğələlərdə fəal, hərbçi şərəfini uca tutan, hərbi sirri qoruyan hərbi qulluqçu olub. Xüsusi təyinatlı dəstədə xidmət etməyə hər cəhətdən layiq idi.

Mayor Ə.Muxtarov diqqətə çatdırdı ki, Vətən müharibəsi zamanı ilk gündən Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları ilə birlikdə döyüş əməliyyatlarına qatılıblar. Dəstənin şəxsi heyəti qarşısına qoyulan döyüş tapşırıqlarını mətinliklə yerinə yetirib. Ümumilikdə, dəstənin 6 nəfər hərbi qulluqçusu müharibədə şəhidlik zirvəsinə ucalıb. Onlardan biri Ayazdır. Xüsusi təyinatlı Cəbrayıl rayonunun ərazisində döyüşüb. Orada erməni işğalçılarının uzun illər möhkəmləndirdikləri 1-ci və 2-ci müdafiə sədlərinin yarılması, Böyük Mərcanlı kəndi istiqamətində düşmən mövqelərinin darmadağın edilməsində silahdaşları ilə birgə igidlik göstərib. Uğurlu döyüşlər nəticəsində təcavüzkarın xeyli sayda canlı qüvvəsi tələfata uğradılıb, zirehli texnikaları, artilleriya vasitələri məhv edilib. 2020-ci il oktyabrın 3-də göstərilən ərazidə qrup komandiri kapitan Türkay Hüseynli, onun tabeliyində vuruşmuş çavuş Elvin Məmmədov və əsgər Ayaz Abasov ağır yaralanaraq şəhadətə yüksəliblər.

Vətən müharibəsi qaziləri, ehtiyatda olan gizir Sakin Səfərov və ehtiyatda olan çavuş Rəşad Poladov Ayazla birlikdə xidmət ediblər və döyüş yolu keçiblər. Onlar silahdaşları haqqında maraqlı xatirələrini bölüşdülər. Qazilərin dediklərinə görə, Ayaz məsuliyyətli, hər bir vəziyyətdə çevik fəaliyyət göstərməyə hazırlıqlı, qətiyyətli, ona təhkim olunan silahdan sərrast atəş açan, hərbi biliklərinin artırılmasına diqqət yetirən, tabeçilik münasibətlərinə ciddi riayət edən, xidmətdə və təlimdə yoldaşlarına köməyini əsirgəməyən hərbi qulluqçu olub. Xüsusi təyinatlı dəstədə xidmət etmək üçün cəlb olunduğu imtahanlarda müvəffəqiyyət qazanıb. O, xüsusi təyinatlı adını şərəflə daşıyıb.



Müsahiblərimin verdikləri məlumata görə, Ayaz koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə Sumqayıtda xidmətə cəlb olunub. Bu və digər tapşırıqların öhdəsindən bacarıqla gəlib.

Vətən müharibəsi ərəfəsində xüsusi təyinatlı bölmələrin taktiki təlimlərinə qatılıb və yüksək döyüş qabiliyyəti ilə fərqlənib.

Müharibə dövründə düşmənə qarşı ruh yüksəkliyi ilə vuruşub, avtomat silahı ilə işğalçıları susdurub. Silahdaşlarının xatirələrində hərbi anda sadiq, qorxmaz, fədakar döyüşçü kimi qalıb. Deyirmiş ki, son damla qanına kimi döyüşəcək, torpaqlarımızı yağı tapdağından azad edəcək, anasını didərgin düşdüyü yurduna qovuşduracaq. Düşmənlə üzbəüz döyüşdə sinəsindən aldığı güllə yaraları onun həyatına son qoyub.

Masallı Regional "Asan xidmət" mərkəzi tərəfindən verilən 12 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Ayazın 3 oktyabr 2020-ci ildə hərbi əməliyyat nəticəsində şəhid olduğu faktı öz əksini tapıb. Ancaq sənəddə hərbi qulluqçumuzun Füzuli rayonunda şəhid olduğu yazılıb.

Şəhid xüsusi təyinatlı 2020-ci il oktyabrın 7-də Bəcrəvan kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər A.Abasov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Bəcrəvan kəndindən 8 nəfər Vətən uğrunda şəhidlik zirvəsinə ucalıb. Kənddə şəhidlərin xatirəsinə abidə və bulaq yaradılıb, habelə onların şəkilləri əks olunan plakatlar quraşdırılıb. Abasovlar ailəsinin yaşadığı evdə Ayazın xatirə guşəsi düzəldilib. Məzunu olduğu orta məktəbdə isə sinif otağına onun adı verilib.

Ədalət Salmanın "Şəhidlik zirvəsinə ucalanlar", Esmira Günəşin "Xarıbülbüllər", "Qəlbimizdə yaşayanlar", Elşad Baratın "Ölümsüzlər. Qarabağ Azərbaycandır!" kitablarında döyüşçünün ömür yolu işıqlandırılıb. Şəhidə şeirlər həsr olunub.

Ayaz öz nəslinin yeganə şəhididir. Subay idi. Valideynləri ilə sonuncu dəfə əmisi oğlunun toyunda görüşüb. Belə bir toy məclisini onun üçün də arzulayıblar. Müharibə başlayanda ön cəbhəyə göndərildiyini ailədə yalnız atası bilib. Sentyabrın 29-da zəng edərək ümidverici və nikbin danışıb. Sonra acı xəbərin çatdırıldığı tarixədək həyəcanlı günlər yaşanıb.

Qeyrətli oğul kimi Ayaz anasının didərgin düşdüyü yurda qovuşması, soydaşlarımızın üzərindən "məcburi köçkün" adının götürülməsi, Qarabağımızda müqəddəs üçrəngli bayrağımızın dalğalanması üçün həyatını qurban verib.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 13.10.2023 10:37 Page 1



## 18 OKTYABR – MÜSTƏQİLLİYİN BƏRPASI GÜNÜ



Azərbaycan XX əsrin sonlarında SSRİ-nin dağılması ilə əlaqədar öz dövlət müstəqilliyini yenidən elan edib. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il oktyabrın 18-də keçirilmiş sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunmuşdur.

Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Beləliklə, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən, Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir.

Konstitusiya Aktı 6 fəsil, 32 maddədən ibarətdir.

1991-ci il dekabrın 29-da ümumxalq referendumunda Azərbaycan xalqı ölkənin müstəqilliyinə və suverenliyinə səs vermişdir.

Bununla yanaşı, həmin dövrdə ölkədə mövcud olan hərc-mərclik və hakimiyyət böhranı, həmçinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü müstəqil dövlət quruculuğu prosesinə böyük zərbə vurmuşdur. Yalnız 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra xalqın milli müstəqillik ideyalarının reallaşdırılması istiqamətində məqsədyönlü addımlar atılmış, Azərbaycanın dövlətçilik ənənələri və suverenliyi bərpa edilmişdir.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olmuşdur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd etmişdir.

**president.az**

## KURSANTLAR DAXİLİ QOŞUNLARIN MUZEYİ İLƏ TANIŞ OLUBLAR



Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, respublikamızda 27 sentyabr - Anım Günü təsis olunub. Bununla əlaqədar olaraq, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrində müxtəlif tədbirlər keçirilib.

Daxili Qoşunların Ali Hərbi Məktəbinə 2023-cü ildə qəbul olunan kursantların Ali Hərbi Məktəbin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçı kapitan Elşən İbadovun rəhbərliyi ilə Daxili Qoşunların tarixi, inkişafı və vəzifələri, torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş hərbi qulluqçularımızın göstərdikləri qəhrəmanlıq nümunələri barədə məlumatlandırılması məqsədilə oktyabr ayının 7-də Daxili Qoşunların Muzeyinə ekskursiyası təşkil edilib.

Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyət üzrə idarəsinin mənəvi-psixoloji hazırlıq şöbəsinin muzey rəhbəri kapitan Sadıq Rəfiyev kursantlara muzey barədə ətraflı məlumat verib. Onları muzeydə yaradılmış ekspozisiya və Daxili Qoşunların tarixini əks etdirən eksponatlarla tanış edib.

Kapitan S.Rəfiyev bildirib ki, Birinci Qarabağ müharibəsində Daxili Qoşunların döyüş yoluna aid sənədlər və eksponatlar muzeyin ekspozisiyasına daxil edilib. Burada kursantlara hərbi qulluqçularımızın rəşadəti barədə məlumat verilib, qəhrəmanlarımızın istifadə etdikləri silah-sursatlar, şəxsi əşyalar və geyim formaları göstərilib.

Həmçinin Daxili Qoşunların şəxsi heyətinin iştirak etdiyi xüsusi əməliyyatlar, xüsusi-taktiki təlimlər, istifadə olunan xüsusi vasitələr, xidməti-döyüş fəaliyyətində qazanılan nailiyyətlər, hərbi hissələrimizin inkişafını əks etdirən fotoşəkillər təqdim olunub. Beynəlxalq əlaqələr mövzusunda fotostendlər, müxtəlif təşkilatlar tərəfindən verilmiş eksponatlar da kursantlar tərəfindən maraqla qarşılanıb.

Muzeydə kursantlar 2020-ci ilin sentyabr ayının 27-də başlayan və 44 gün davam edərək işğalçı Ermənistanın məğlubiyyəti ilə başa çatan Vətən müharibəsində Daxili Qoşunların düşmənə qarşı rəşadətlə vuruşan şəxsi heyəti, eləcə də "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş 4 nəfər hərbi qulluqçusu haqqında məlumatlandırılıblar.

Muzeyin ikinci mərtəbəsində isə kursantlar Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdikləri diqqət və qayğını əks etdirən guşə ilə tanış olublar.

Sonda bir daha vurğulanıb ki, ürəyi Vətən sevgisi ilə döyünən, öz şücaətləri ilə ölümsüzləşən şəhidlərimizi xalqımız heç vaxt unutmayacaq, gələcək nəsillər onların xatirəsini ehtiramla anacaqlar.

**kapitan Xədicə Hacızadə**

## AVTOMOBİLLƏRİN VƏ ZİREHLİ TEXNİKANIN HƏMİŞƏ SAZ VƏZİYYƏTDƏ OLMASINA XÜSUSİ FİKİR VERİLİR



Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasında bütün xidmət sahələrinin öz rolu var. Bu baxımdan avtomobil və zirehli texnika xidməti də istisna deyil. Şəxsi heyətin, habelə xüsusi yüklərin təyin olunmuş ünvana vaxtlı-vaxtında çatdırılmasında xidmətin əməyi böyükdür.



16075 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Avtomobil və zirehli texnika xidmətinin rəisi kapitan Bəxtiyar Orucov nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışarkən bildirdi ki, hər gün sürücü heyəti avtomobil və zirehli texnikaların saxlanıldığı parka gəlir. Parkın girişində xidmət rəisi və park növbətçisi tərəfindən şəxsi heyətin sayı yoxlanılır, təhlükəsizlik qaydaları ilə tanışlıqdan sonra verilmiş tapşırıqlara əsasən fəaliyyətə başlayırlar.

Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə yay və qış mövsümlərində texniki xidmətlər göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır.

Xidmət rəisi nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılması məqsədilə mütəmadi olaraq məşğələlərin keçirildiyini söylədi. Məşğələlərdə gündəlik texniki qulluğun keçirilməsi, avtomobillərin hissə və mexanizmlərinin iş prinsipləri, düzgün istismarı, o cümlədən düzgün idarə olunması, şəxsi heyətin və xüsusi yüklərin daşınması zamanı sürücünün vəzifələri, təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi tədris olunur.

Kapitan B.Orucov vəzifə borclarının icrasına vicdanla yanaşan, hər zaman öz bilik və bacarıqlarını təkmilləşdirən nümunəvi hərbi qulluqçulardan çavuş Mətləb Miriyevin, kiçik çavuş Səbuhi Ələkbərovun, kiçik çavuş Elvin Allahverdiyevin və əsgər Pərviz Əhmədovun adlarını qeyd etdi.

Bir sözlə, hərbi hissənin parkında mühafizə olunan avtomobillərin və zirehli texnikaların saz vəziyyətdə saxlanılması, sürücü hərbi qulluqçuların peşə bacarıqlarının yüksək səviyyəyə qaldırılması diqqət mərkəzindədir.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

## VƏZİFƏSİNİ LAYİQİNCƏ YERİNƏ YETİRƏN ZABİT



17077 saylı hərbi hissənin helikopter manqasının borttexnik-təlimatçısı kapitan Elvin Cəlilov qarşıya qoyulan tapşırıqları layiqincə icra edir, nizam-intizamı ilə fərqlənir. O, 1989-cu il dekabrın 10-da Gürcüstan Respublikasının Rustavi şəhərində anadan olub. 1996-2007-ci illərdə Abşeron rayonunun Xırdalan qəsəbəsində (indiki Xırdalan şəhəri) yerləşən 2 saylı tam orta məktəbdə təhsil alıb. 2007-ci ildə hələ uşaqlıq illərindən arzusunda olduğu Milli Aviasiya Akademiyasının Hava nəqliyyatının uçuş texniki istismarı fakültəsinə qəbul olunub. Sözlərinə görə, məhz həmin illərdə hərbi xidmətə olan marağı onun gələcək hərbçi-pilot kimi yetişməsinə zəmin yaradıb.

2012-2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub.

2014-cü ildə 17077 saylı hərbi hissəyə həqiqi hərbi xidmətə qəbul olunub. Kapitan E.Cəlilov xidmətə gəldiyi ilk gündən özünə qarşı tələbkarlığı, icraçılığı ilə seçilməyi bacarıb.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Anar Alıyev peşəkar zabit, tələbkar hərbi qulluqçu kimi onu müsbət xarakterizə etdi. Kapitan E.Cəlilovun bütün tapşırıqların öhdəsindən layiqincə gəldiyini qeyd edərək, peşə hazırlığının daha da artırılması istiqamətində əzmlə çalışdığını, istifadədə olan helikopterlərin hər zaman uçuşa hazır və saz vəziyyətdə saxlanılmasını təmin etdiyini bildirdi.

Zabitimizə bu şərəfli xidmətində uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

## MÜSBƏT KEYFİYYƏTLƏRİ İLƏ FƏRQLƏNƏN ƏSGƏR



16076 saylı hərbi hissənin intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan əsgər Camal Ramazanov mühafizə bölüyündə xidmət edir. Əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər C.Ramazanov 2004-cü il avqustun 27-də Zaqatala rayonunun Mamruk kəndində anadan olub. 2009-2018-ci illərdə doğma kəndində yerləşən tam orta məktəbdə təhsil alıb. 2018-ci ildən avtomobil ustası yanında çilingərliyi öyrənməyə başlayıb və hərbi xidmətə çağırılanadək bu işlə məşğul olub. 2022-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə hərbi andı qəbul etdikdən sonra xidmətini davam etdirmək üçün 16076 saylı hərbi hissəyə göndərilib. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir. Bölük komandiri tərəfindən müsbət xarakterizə olunan əsgər C.Ramazanov verilən tapşırıqların icrasında sayıqlıq göstərir, onları bacarıqla yerinə yetirir.

Xidmət müddəti ərzində hərbi hissə komandiri tərəfindən "Fərman" və "Hərbi qulluqçunun yaşadığı yerə onun hərbi xidmət borcunu nümunəvi yerinə yetirməsi haqqında məktub"la mükafatlandırılıb.

**16076 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Bolqarıstan ABŞ-dan "Stryker" 8×8 zirehli vasitəsi alacaq



Bolqarıstan ABŞ-dan "Stryker" 8×8 zirehli vasitələr almağa qərar verib. Ordu.az xəbər verir ki, bu çərçivədə Bolqarıstan ABŞ-dan 1,5 milyard dollara 183 ədəd "Stryker" 8×8 zirehli vasitəsi alacaq.

Bildirilib ki, Bolqarıstan bu qabaqcıl imkandan öz müdafiəsini gücləndirmək və regional təhlükələrin qarşısını almaq üçün istifadə edəcək.

### Rusiya ordusu 120 mm-lik "Floks" ÖAQ-larla silahlanır



"Rostex" Dövlət Korporasiyası 120 mm-lik "Floks" özüyeriyən artilleriya qurğularını Rusiya ordusuna təhvil verməyə başlayıb. Bu barədə "Poliqon" "Rostex" Dövlət Korporasiyasının mətbuat xidmətinə istinadən xəbər verib.

120 mm-lik 2S40 "Floks" özüyeriyən artilleriya qurğusu Rusiyanın "Uralvaqonzavod" konserni tərəfindən istehsal olunur. Düşmənin şəxsi heyətini, silah və texnikasını məhv etmək üçün nəzərdə tutulub.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı kapitan Vüqar Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı baş leytenant Pərviz Orucova **qardaşı baş leytenant Niftalı Orucovun** antiterror tədbirləri zamanı şəhid olmasından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı gizir Səxavət Bayramzadəyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000